Qəzənfər Salman oğlu Süleymanov
i.e.d., prof.
Nuranə Namiq qızı Abdullayeva
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
UOT:338; 685.5; JEL:M11;M19.

Müəssisə və təşkilatlarda idarəetmə qərarlarının qəbul edilməsində davranış iqtisadiyyatından istifadənin perspektivləri

Xülasə

Tədqiqatın məqsədi – müəssisə və təşkilatlarda idarəetmə qərarlarının qəbul edilməsində davranış iqtisadiyyatından istifadə perspektivlərini müəyyən etməkdir. Tədqiatın aparılması üçün müəssisə və onun təşkili ilə bağlı metodoloji əsaslardan istifadə edilmişdir. Tədqiqatın praktik əhəmiyyəti müəssisələrin fəaliyyətinin təkmilləşdiirlməsində və idarəetmə qərarlarının verilməsinin səmərəliliyinin artırılmasında önəmli hesab oluna bilər. Tədqiqatın orjinallığı müəssislərin iradəedilməsinə və davranış qaydalarına elmi yanaşmaların tətbiqi ilə bağlıdır.

Açar sözlər: *müəssisə, idarəetmə sistemi, davranış qaydaları, rasionallıq*

Giriş

Qloballaşan dünyada beynəlxalq meyarlara uyğun güclü dövlət kimi inkişaf etmək yalnız rəqabətədavamlı, dayanıqlı və davamlı inkişaf edən açıq iqtisadi sistemin idarə olması ilə mümkün ola bilər. Məhz bu zəruriyyətdən irəli gələrək, müəssisə və təşkilatların idarəetmə sistemində qərarların qəbulunda müxtəlif təşkilati-iqtisadi mexanizmlər tətbiq edilir. Bu mexanizmlərdə başlıca məqsəd müəssisə və təşkilatlarda idarəetmə qərarlarının qəbul edilməsində rasionallığın təmin edilməsidir. Bundan əlavə, rasionallıq iqtisadiyyatla əlaqəli bəzi fərziyyələrə məhdudiyyət qoymaq və eyni zamanda insanın davranışına mühüm amillərin necə təsir etdiyini izah etmək məqsədi ilə araşdırılıb.

Rasional davranış nəzəriyyəsi

İqtisadi ədəbiyyatlarda rasionallıq dedikdə, verilmiş şərtlər və məhdudiyyətlərin qoyduğu hüdudlarda qarşıya qoyulan məqsədlərə nail olmaq üçün uyğun olan davranış tərzi başa düşülür. Rasional davranış nəzəriyyələri iki formada olur: normativ və təsviri. Yəni, fərdlər və ya təşkilatlar müəyyən şərtlər daxilində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün necə davranmalı olduqlarını təyin edə bilər və ya fərdlərin və ya təşkilatların realda necə davrandıqlarını təsvir edə bilər. Bu o deməkdir ki, rasional davranış nəzəriyyəsi fərdlərin və təşkilatların rasional davranışı ilə bağlıdır. Nəzəriyyənin bu iki hissəsi tamamilə fərqli deyil. İkisi arasındakı fərq ondan ibarətdir ki, təşkilati rasionallıq nəzəriyyəsi məqsədlərin həyata keçirilməsi hadisələrini nəzərdən keçirməlidir, lakin fərdi rasionallıq nəzəriyyəsi bunu nəzərə almır. Bu mühakimə qismən doğrudur, çünki məqsədlərin gerçəkləşməsi həm fərd, həm də təşkilat davranışları daxilində vacib faktor hesab edilir. Bu, psixologiyada "Dissonans nəzəriyyəsi" [1] adlanan əsas sahədir. Bu nəzəriyyəyə görə, əgər insanların düşüncəsində hər hansı bir uyğunsuzluq və ya ziddiyyət meydana çıxarsa onlar, həmin problemləri aradan qaldırmaq üçün yeni həll yolları aşkar etməyə can atacaqlar. Psixologiyada "Dissonans nəzəriyyəsi" insanların davranışlarını təhlil edən əsas sahələrdən biridir. Bu nəzəriyyənin başlıca xüsusiyyəti fərdi və təşkilati davranışın strukturlaşdırılmasını və təhlilini asanlaşdıra bilməsidir. Bu xüsusiyyət sayəsində fərdlər və təşkilatlar hər hansı bir şərait daxilində yarana biləcək müsbət və ya mənfi hallarda necə davranmalı və hansı qərarı qəbul etməli olduqlarını müəyyən edə bilərlər. Müəssisə və təşkilatlarda rasional davranışı təhlil edən əsas nəzəriyyələrdən biri "Müəssisənin klassik nəzəriyyəsi"dir [2]. Bu nəzəriyyə müəssisə və təşkilatlarda rasional davranışı müqayisə etmək və fərqləndirmək üçün faydalı təkliflər irəli sürür. "Müəssisənin klassik nəzəriyyəsi"də əsas təhlil

olunan rasional davranış növü müəssisələrin və təşkilatların mənfəəti maksimuma çatdırmasıdır. Burada mənfəət, satışdan əldə edilən ümumi daxilolmalar ilə istehsalın maya dəyəri arasındakı fərq kimi müəyyən edilir. Bu halda iki şərt verilir:
Tələb funksiyası: tələb **(**D), qiymət (P):

$$D = f(P);\ P = D^{-1}(q),\ (1)$$

Burada tələb funksiyası ümumi daxilolmaları müəyyən edir. Xərc funksiyası: istehsalın maya dəyəri (C), istehsal olunan məhsul (q):

$$C = C(q),\ (2)$$

İstehsal olunan məhsulun miqdarı tələb olunan kəmiyyətə bərabərdirsə, onda əldə olunan mənfəət, sadəcə olaraq, ümumi daxilomalar **(**R) və istehsalın maya dəyəri (C) arasındakı fərqdir:

$$\text{Mənfəət} = R - C = pq - C(q),\ (3)$$

Riyazi differensasiyanın qaydalarına və fərziyyələrə əsasən, maksimum mənfəət əldə etmək üçün aşağıdakı düsturdan istifadə edilir:

$$d(R - C)/dq = p + qd(D\text{-}1(q))/dq - dC(q)/dq = 0,\ (4)$$

Buradan da mənfəətə maksimum(minimum) qiymət verən q (istehsal olunan məhsulun həcmi) tapılır. Rasionallığın məhdudlaşdırılmasının başqa bir yol isə fərdin və ya təşkilatın problemlərin həllindəki alternativlər haqqında yalnız natamam məlumata malik olduğunu fərz etməkdir. Belə halda fərdin və ya təşkilatın əsas vəzifəsi xərcləri nəzərə alaraq gözlənilən mənfəəti maksimuma çatdıran alternativləri müəyyən etməkdir. Müəssisə və təşkilatların idarəedilməsi zaman praktiki olaraq müxtəlif problemlər ortaya çıxır. Bu sahədə əsas problemlərdən biridə müəssisələrin ehtiyatlarının saxlanıldığı anbarların yerinin müəyyən edilməsidir. Burada əsas məqsəd, anbar əməliyyatında nəqliyyat xərclərinə qənaət və daha sürətli çatdırılma nəticəsində əldə edilən artan mənfəəti təmin etmək üçün sərfəli olacaq anbar yerlərinin coğrafi modelini müəyyən etməkdir. Anbarların yerini müəyyən etmək üçün Amerika iqtisadçıları Kuehn və Hamburger [3] tərəfindən hazırlanmış "Evristik proqram" (1963) iki hissədən ibarətdir (sxem 1).

Sxem 1.

"Evristik proqram"ın hissələri

- **Ümumi xərcləri artırmadan, əlavə anbarlar daxil olunana qədər anbarların yerini bir-bir müəyyən edən əsas proqram.**
- **Fərdi anbarların çıxarılmasından və ya bir yerdən digərinə hərəkət etməsi zamanı mənfəətin nəticələrinin qiymətləndirilməsi proqramı.**

Kuehn və Hamburger Evristik proqramın üstün performansını iki əsas səbəblə əlaqələndirirlər (sxem 2). Bu proqram, layihələndirmə prosedurlarının müəyyən xüsusiyyətlərinə uyğun gəlir. Mümkün olan plan axtarış prosedurunun köməyi ilə addım-addım inkişaf etdirilir və son plan qəbul edilməzdən əvvəl yarana biləcək dəyişikliklər araşdırılır. Hər bir mərhələdə bütün sistem üçün ən çox qənaətli anbar seçilir və plana əlavə olunur. Daha sonra anbarın yerini müəyyən edən proqramların blok-sxemi, onların formalaşdırılması strukturu və.s hazırlanır. Rasional qərarların qəbulu ilə bağlı tədqiqatlarla məşğul olan bir sıra mütəxəssislər şahmat oyununu real dünyada qərar qəbul etmənin başlıca xüsusiyyətlərini əks etdirən kiçildilmiş bir oyun kimi qəbul edirlər. Buna görə də, rasionallığa yanaşmada "Şahmat üsulu" mütəxəssislər tərəfindən

araşdırılmışdır. Amerika riyaziyyatçıları Fon Neumann və Morgensternin [4] müşahidə etdiyi kimi, bu mükəmməl məlumat oyunudur.

Sxem 2.

"Evristik proqram"ın üstünlükləri



Gələcək hadisələrin heç bir ehtimalının hesablamalara daxil edilməsinə ehtiyac yoxdur və statistik mənada heç bir gözlənilməz hal yaranmır. Şahmat oyununa sadəcə bir hərəkət deyil, bir strategiya seçimi kimi baxaq. Xüsusilə, oyunçunun, hərəkət boyunca şahmat fiqurlarını qurban verməsi halı olsa da, onun rəqibi mat qoymaq üçün strategiya axtarmasını nəzərdə saxlayır. Əgər şahmat oyunçusu oyunun gedişatını sona çatdıra bilmirsə, bu cür hərəkət şahmat oyununa daxil ola bilməz.

Məhdud rasonalllıq nəzəriyyəsi

Rasional davranış nəzəriyyəsində qərar qəbul edərkən yaranan problemlərin əsas səbəbi fərdlərin və təşkilatların kifayət qədər informasiyaya malik olmamasıdır. Belə halda informasiya emalı imkanlarında məhdudiyyətlər yaranır ki, elmdə bu hadisə "Məhdud rasionallıq nəzəriyyəsi" adlanan sahədə təhlil edilir. Qərarların qəbul edilməsində insanlar (idarəedicilər) qeyri-müəyyənliklərlə qarşılaşdıqları və müəyyən rasional seçim etməli olduqları zaman yaranan məhdudiyyətlər məhdud səmərəlilikdə yaxşı təsvir olunur. Onlar müxtəlif formalarda, ilk növbədə, koqnitiv ("başa düşmək, dərk etmək, öyrənmək") məhdudiyyətlərdə, əlverişli vaxtda və ətraf mühitin digər faktorlarında özünü göstərir. İqtisadi ədəbiyyatlarda məhdud rasionallıq dedikdə, əməliyyatların idarə edilməsi və təhlili zamanı müxtəlif alternativlərin ən yaxşısını tapmaq prossesi nəzərdə tutulur. Bu halda xətti və dinamik proqramlaşdırma, optimallaşdırma metodlarından ən səmərəlisi hesab edilir. Xətti və dinamik proqramlaşdırma alternativlərin ən güclülərindən hesab edilir. Bu sahədə yaranan problemləri optimallaşdırma modellərdən istifadə etməklə həll etmək olar. Amerikalı iqtisadçı, politoloq və koqnitiv psixoloq Herbert Simon [5] bu davranış məktəbinin banisi hesab olunur. Məhdud rasionallıq rasionallığı optimallaşdırmada deyil, təminatda tələbatdan irəli gələn rasionallıq kimi nəzərdən keçirir. Bu baxımdan rasionallıq, ən optimal seçimdən fərqli olaraq ən qənaətbəxş qərarlar və alternativlər qəbul etmək üçün istifadə olunan sadə variantların mövcudluğundan asılıdır. Bununla yanaşı, iş mühiti və insanın ətraf mühitə reaksiyası da qərarların qəbulunun səmərəliliyinə təsir göstərir. Məhdud rasionallıq iqtisadiyyatla bağlı bəzi fərziyyələrin sərhədini müəyyən etməyə və eyni zamanda insan davranışının mühüm amillərinə necə təsir etdiyini izah etməyə yönəlmişdir. Xüsusilə, insanın düşüncələri şəxsiyyətdən, rasional düşünmək qabiliyyətindən, bilikdən, lazımi informasiyadan istifadə qabiliyyətindən, eləcə də onun fikir və düşüncələrindən təsirlənir. Bu, yalnız iqtisadiyyatın insanların həmişə öz maraqları üçün səmərəli qərar qəbul etdiyini göstərir. Məhdud rasionallıq iddia edir ki, belə ehtimal heç də həmişə düzgün deyil, çünki müxtəlif amillər insanın riskə getməyə hazırlığına təsir edə bilər (sığorta kimi müxtəlif məsələlər üzrə qərarlar qəbul etmək, maliyyə proqnozları tərtib etmək, gələcək haqqında cəsarətli ehtimallar irəli sürmək və.s.). Amerikanın Siyasi Elmlər üzrə Professoru Jonathan Bendor (2010) [6] məhdud rasionallığı insan davranışının funksiyası kimi nəzərdən keçirir və insanların qeyri-müəyyənlik şəraitində necə səmərəli qərarlar qəbul etdiyi məsələsinə diqqət yetirir. Italiyanın Dövlət Maliyyəsi üzrə

professoru Giuseppe Eusepi və Böyük Britaniyanın Mançester Universitetinin Siyasi Nəzəriyyə üzrə professoru Alan Hamlin (2006) [7] tərəfindən qeyd edildiyi kimi, məhdud rasionallıq insanların davranışlarına təsir etdiyi üçün müxtəlif amillərin dairəsini daraldır. İnsanlar qeyri-müəyyənlik və qərarların qəbul edilməsi ilə üzləşərkən, adətən öz şəxsiyyətlərinə əsaslanaraq qərar qəbul edirlər və bu, ya onların nikbinliyi, ya da neqativliyi ola bilər. Eyni mənada qərarlar bu məsələ ilə bağlı mövcud biliklər, məntiq, fərdi mülahizələr və stereotiplər, eləcə də bu məsələ ilə bağlı digər şəxsi təsəvvürlər əsasında qəbul edilir. Məsələ bundadır ki, qərarlar, bir qayda olaraq, bu məsələ ilə bağlı mövcud informasiyadan asılıdır və tədqiq olunan hadisəyə dair mövcud nou-hau (yenilik olan biliklər) ilə məhdudlaşdırılır. Həmçinin, insanlar adətən şəxsi maraqlarına yönəlmiş səmərəli qərarlar qəbul edir. Beləliklə, məhdud rasionallıq iddia edir ki, adətən heç bir bəhanə, həmçinin insanların riskə girmək, sığorta haqqında qərarlar qəbul etmək və gözləntilərə dair iqtisadi proqnozlar vermək meyilinə təsir edən hər hansı digər mülahizələr mövcud deyil.

Rasional olaraq, insanlar arzu olunan məqsədə nail olmaq üçün ən yüksək imkan yaradırlar. Onlar təklif edilən qərar qəbuletmə strategiyalarından istifadə edərək qarşılıqlı əlaqə yolu ilə qərarlar qəbul etməyə üstünlük verirlər. Təcrübələr onu göstərir ki, həllər mürəkkəb səbəb-nəticə zəncirlərində mövcuddur. Bir həll axtararkən, yersiz və ya istənməyən variantlar istisna olmaqla, yeni imkanlara diqqət yetirilməlidir. Bir sözlə, problemlərin davamlı həlli prosesi dinamik məhdudiyyətlər və imkanlar şəraitində ətraf mühitlə qarşılıqlı əlaqələrə əsaslanır.

Risk və qeyri-müəyyənlik şəraitində qərarların qəbul edilməsi

Çin iqtisadçısı Giang [8] qərarların qəbul edilməsini hər bir vəziyyətdə və ya şəraitdə başqaları arasında müəyyən bir seçim qəbul etməyə gətirib çıxaran zehni proseslərə aid olduğunu söyləyir. Bir çox müxtəlif alternativlər arasında seçim zamanı tez-tez qərarsızlıq yaranır. Digər hallarda, bəzi insanlar öz qərarlarını qəbul edərkən başqa insanların müəyyən fikir və düşüncələrinə güvənirlər. Digər insanlar isə əksinə, başqa insanların fikirlərini rədd edə bilərlər. Qərar qəbul edərkən risk mühüm rol oynayır. Bu o deməkdir ki, gələcəklə bağlı qərarlar dəyişdirilə bilər, çünki bununla bağlı risklər zamanla dəyişə bilər və bu, biznesdə gözlənilən risklərə qarşı çıxmaq üçün tətbiq olunan yumşaldıcı amillərin real qiymətləndirilməsini tələb edir (sxem 3).

Sxem 3.

Müəssisələrin üzləşdikləri risk növləri



Riskin qiymətləndirilməsi üçün, rəhbərlik və ya məsul şəxslər qarşılaşdıqları müxtəlif variantları nəzərdən keçirməli və risklərin daha da idarə edilməsinin ən yaxşı yolu barədə qərar qəbul etməlidirlər. Bu halda ilk addım, mövcud problemlərin müəyyən edilməsi və problemin həlli üçün alternativ yolların müəyyənləşdirilməsidir. Növbəti addım meydana çıxa biləcək müxtəlif

qeyri-müəyyənliklərin qruplaşdırılmasını nəzərdə tutur. Amerika professorları Stingle və Geraldie (2017) [9], davranış iqtisadiyyatının psixoloji proseslərini, sosial xüsusiyyətlərini, idrak həqiqətlərini necə öyrənilməsini və iqtisadi qərarlara necə təsir göstərdiyini, bazar şərtləri daxilində insanların müxtəlif qərarlar qəbul etmə gedişatını təhlil etmişdilər. Bu düşüncə məktəbinə görə, insanların hər hansı bir hadisəyə müəyyən bir şəkildə davranmaq meyli olur. Başqa bir mövzu bazarın səmərəsizliyinin davranışa təsir etməsidir. Bu halda, qeyri-rasional qərarların qəbul edilməsi prosesləri yanlış qiymətləndirmə (Gigerenzer & Gaissmaier, 2011) ilə birlikdə müzakirə edilir [10].

Yarımməhdud rasionallıq. Bu məqalədə yarımməhdud rasionallıq nəzəriyyəsi məhdud rasionallıq nəzəriyyəsinin genişləndirilməsi kimi göstərilir. Xüsusilə də, qərarların qəbul edilməsi prosesinin iki komponentdən ibarət olması təklif olunur. Məhdud rasionallıq nəzəriyyəsində bu qərar istifadə olunan informasiyanın natamam və qeyri-mükəmməl olması faktından asılı olmayaraq qəbul edilir və insan beyni qərarları məhdudiyyətlər çərçivəsində alır. Məhdud səmərəli qərarların qəbul edilməsi. Rasionallıq anlayışlarından biri də optimal qərarın qəbul edilməsi konsepsiyasını əhatə edir. Bu məhdud səmərəli rasionallıq nəzəriyyəsi kimi tanınır və Nobel mükafatı laureatı Herbert Simon tərəfindən təklif edilmişdir [11,12]. Bir çox iqtisadi sistemlər üçün bu müşahidənin nəticələri çox əhəmiyyətlidir. Rasional qərarların qəbulunda müəyyən mülahizələrin nəzərə alınması vacibdir. Nəzərə alınmalı olan digər cəhət ondan ibarətdir ki, məlumatları qəbul edən və onları qərarlara çevirən model də natamam ola bilər. Əgər, məsələn, bu model insan beynini təşkil edirsə, onda bu o demək deyil ki, hər hansı bir insanın aclığı və ya qəzəbli olması kimi digər amillər ona təsir edə bilər. Herbert Simon, bu cür qərarların qəbul edilməsində istifadə olunan məlumatların qeyri-kamil və natamam olması ilə bağlı məhdudiyyətlər şəraitində optimallaşdırılmış bir qərarın qəbul edilməsi konsepsiyasını təmsil edən "məmnuniyyət" termini təqdim etdi, bu cür qərarların qəbul edilməsi üçün istifadə olunan model ardıcıl və qeyri-adekvat olur.

Yarımməhdud rasional qərarların qəbul edilməsi

Bu bölmədə yarımməhdud rasionallıq nəzəriyyəsi təklif olunur. Yarımməhdud rasionallığının prinsipini anlamaq üçün bir neçə təklif formalaşdırmaq vacibdir və bunlar aşağıdakılardır (sxem 4).

Sxem 4.

Rasionnalığın formalaşması ardıcıllığı



Çin alimi Tsang [13] hesablama intellektinin effektiv səmərəliliyini müəyyənləşdirdiyini irəli sürdü. O qeyd etmişdir ki, rasionallıq kəmiyyət qiymətləndirilməsinə cavabdeh deyil və hissələrə bölünə bilməz. İqtisadiyyat, siyasi və sosial elmlər kimi bir çox fənlər üçün daha çox öyrənilməlidir. Bu, rasionallıq və müasir texnologiyalar arasında qarşılıqlı əlaqənin mahiyyətini özündə əks etdirir. Rasionallığın bölünməzliyi konsepsiyasının əhəmiyyəti və bu dərin anlayışın

iqtisadiyyat, sosiologiya və politologiya kimi bir çox sahələrə tətbiqi çox geniş nəticələrə malikdir və daha da öyrənilməyi tələb edir.

Nəticə

Araşdırmalar göstərdi ki, rasional və məhdud rasionallıq nəzəriyyələri qərarların qəbul edeilməsi zamanı mühim əhəmiyyətə malikdir. Rasionallıq, işçi mühiti və insanların reaksiyası ilə müəyyən edilir. Bu nəzəriyyələr ikinci dünya müharibəsi zamanı və sonrakı illərdə əhəmiyyətli qərarların qəbul edilməsi üçün formal prosedurlardan istifadə etmək cəhdi nəticəsində yaranmışdır. Bütün bu inkişafların nəticəsi olaraq, bu gün dövlət və özəl sektorlarda qərar qəbul edən fərdlər və təşkilatlar qərar qəbuletmə proseslərində onlara kömək məqsədi daşıyan davranış üzrə modellər və hesablama alətləri toplusuna malikdirlər. Davranış üzrə model və hesablama alətləri fərdlərin və təşkilatların qarşılaşdığı problemlərin həlli zamanı bu problemləri necə həll etmə yolunda köməkçi alət kimi çıxış edir. Bu o deməkdir ki, davranış nəzəriyyəsinin aktuallığı zaman keçdikcə daha da artır. Çünki, hər bir sahədə davranış əsas faktorlardan biridir. Müəssisə və təşkilatlar isə yarana biləcək hər bir vəziyyətə uyğun olaraq insanlar rasional və məhdud rasional davranış göstərməlidirlər. Bu məsələ bundan sonra da öz aktuallığını qoruyacaq.

Ədəbiyyat

1. Chapanis.N.P. and J.A.Chapanis (1964), “Cognitive Dissonance”: Five Years Later, Psychological Bulletin, d1, 1023.
2. Stigler, G. I. (1961), “The Economics of Information”, Journal of Political Economy, 69, 213.
3. Kuehn and Hamburger (1963), assumptions about "Solving warehouse problems in enterprises", p 643.
4. Von Neumann, J. and O. Morgenstern (1953), Theory of Games and Economic Behavior, (3rd ed.), Princeton University Press, Princeton, pp. 125.
5. Simon, H.A. and P.A. Simon (1962), “Trial and Error Search in Solving Difficult Problems,” Behavioral Science, 7, 425M29.
6. Bendor, J. B. (2010). Bounded rationality and politics. Berkeley: University of California Press.
7. Eusepi, G., & Hamlin, A. P. (2006). Beyond conventional economics the limits of rational behaviour in political decision making. Cheltenham, UK: Edward Elgar.
8. Giang, P. H. (2015). Decision making under uncertainty comprising complete ignorance and probability. International Journal of Approximate Reasoning, 62, 27-45.
9. Stingl, V., & Geraldi, J. (2017). Errors, lies and misunderstandings: Systematic review on behavioural decision making in projects. International Journal of Project Management, 35(2), 121.
10. Gigerenzer, G., & Gaissmaier, W. (2011). Heuristic decision making. Annual Review of Psychology, 62(1), 451-482.
11. Simon, H. (1957). "A Behavioral Model of Rational Choice", in Models of Man, Social and Rational: Mathematical Essays on Rational Human Behavior in a Social Setting. New York: Wiley.
12. Simon, H. (1990). "A mechanism for social selection and successful altruism". Science 250 (4988).
13. Tsang, E.P.K. (2008). "Computational intelligence determines effective rationality". International Journal on Automation and Control 5 (1): 63–6.

Газанфар Салман оглы Сулейманов
Нурана Намиг кызы Абдуллаева

Резюме

Перспективы использования поведенческой экономики при принятии управленческих решений на предприятиях и в организациях

Резюме

Цель исследования-определить перспективы использования поведенческой экономики при принятии управленческих решений на предприятиях и в организациях. Для проведения исследования были использованы методологические основы, связанные с предприятием и его организацией. Практическую значимость исследования можно считать важной в улучшении деятельности предприятий и повышении эффективности принятия управленческих решений. Оригинальность исследования обусловлена применением научных подходов к волеизъявлению и правилам поведения субъектов.

Ключевые слова: *предприятие, система управления, правила поведения, рациональность*

Gazanfar Salman Suleymanov
Nurana Namig Abdullayeva

Perspectives on the use of behavioral economics in making management decisions in businesses and organizations

Summary

Purpose of the study - to determine the prospects of using behavioral economics in management decision making in enterprises and organizations. Methodological bases on the enterprise and its organization were used to conduct the research. The practical significance of the study can be considered as important in improving the activities of enterprises and improving the effectiveness of management decision-making. The originality of the study is related to the application of scientific approaches to the will and rules of behavior of enterprises.

Keywords: *enterprise, management system, rules of conduct, rationality*

Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov
Daxil olub: 14.09.2022.
Çapa qəbul olunub: 21.09.2022.